**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№331/5** **18 iyun 2021-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən aparılmış keyfiyyətə nəzarət üzrə monitorinqlərin nəticələrinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən təqdim edilmiş 29 aprel 2021-ci il tarixli 01 nömrəli Protokolu müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin 29 aprel 2021-ci il tarixli 01 nömrəli Protokolu nəzərə alınsın.

2. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən aparılmış monitorinqlərin nəticələrinə dair monitorinq subyektlərinə qoyulmuş qiymətlər aşağıdakı kimi təsdiq edilsin:

- Sərbəst auditor İbrahimov Elnur Elxan oğlu – 5 (keyfiyyətli);
- “Tax, Audit & Konsaltinq Servis” MMC, “Azərbeynəlxalq audit xidməti” MMC və “Kermur Audit və Konsaltinq” MMC və sərbəst auditorlar Bəşirov Şərif Miri oğlu və Axundov Vaqif Xəlil oğlu – 3 (Qismən qənaətbəxş);
- “Biznes Audit” MMC və “Victoryvvays Audit Consulting” MMC və sərbəst auditorlar İsayev Telman Mabud oğlu və Əliyev Aftandil Adıgözəl oğlu - 2 (Qeyri-qənaətbəxş).

3. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, “Biznes Audit” MMC-nin və “Victoryvvays Audit Consulting” MMC-nin və sərbəst auditorlar İsayev Telman Mabud oğlunun və Əliyev Aftandil Adıgözəl oğlunun 2022-ci il ərzində plandankənar monitorinqlərinin aparılması və bununla bağlı 2022-ci ilin Plan-Qrafikinə daxil olunması təmin edilsin.

4. Sərbəst auditor Əvəzov Kamil Şərail oğlunun 2021-ci il ərzində növbədənkənar monitorinq üzrə keyfiyyətə nəzarət üzrə monitorinq qrupuna sənədlərin təqdim edilməməsi barədə tərtib edilmiş akt və 2020-ci ildə də müvafiq sənədlərin verilməsindən imtina etməsini, buna görə Palata Şurasının 2021-ci il 23 fevral tarixli 328/6 nömrəli qərarı ilə töhmət almasını nəzərə alaraq, ona auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş 04 avqust 2017-ci il tarixli SA/371 nömrəli icazə dayandırılsın.

5. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki:

5.1. bu qərarın 4-cü bəndindən irəli gələn məsələləri həll etsin;

5.2. bu qərarın Palatanın üzvü olan auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin etsin.

6. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**